F.Köçərli adına Respublika
Uşaq Kitabxanası

Baş redaktor: Şəhla Qəmbərova
Redaktor: Aynur Turan
Korrektor: İlahə Quliyeva
Bədii tərtibat: Aqil Tağıyev

Müəlliflik hüququ F.Köçərli adına Respublika Uşaq Kitabxanasına məxsusdur. Xüsusi icazə olmadan jurnalın surətini, elektron variantını çap etmək və yaymaq qanuna ziddir.

Jurnalın üz qabığındakı foto:
Şahzadə Rifat
Şahzadə Emilia

Jurnalımıza abunə olmaq üçün aşağıdakı ünvana müraciət edə bilərsiniz.
Ünvan: Bakı AZ1022 S.Vurğun küçəsi 88
Tel: (+99412) 5970879,
Faks: (+99412) 5970851.

«Aspoliqraf LTD» nəşriyyat-poliqrafiya müəssisəsinin mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur.

Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyatdan keçib.

Qeydiyyat nömrəsi:
№ 3926 – 06.11.2014 2006-cı ilin noyabrından çıxır.

Təşkilati dəstək:
Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi
Təsisçi: F.Köçərli adına Respublika Uşaq Kitabxanası



**web:** www.clb.az
**facebook:** fb.com/childlibazerbaijan
**x.com/**childlibaze
**instagram:** childlibazerbaijan
**youtube:** childlibazerbaijan

# Göy Qurşağı

UŞAQ VƏ YENİYETMƏLƏR ÜÇÜN JURNAL
№ 01 (85) / 2025






# Səssizlik fərq deyil, eynilikdir

***Yaxşı kitab aysberqə bənzəyir, onun səkkizdə yeddisi suyun altında gizlənib.***

***Ernest Heminquey***

Salam, dostlar! Bu mənəm, İncəhörüm! Gəlin sizə çox maraqlı bir tədbirdən söhbət açım. Ötən günlərdə parka gəzintiyə çıxmışdım. Elə bu an doslarımdan bir neçəsinin səsini eşitdim, məni çağırırdılar. Mən də onları görüb sevindim. Sevincimə sevinc qatan məqam isə bilirsiniz nə idi?

Sən demə bizim kitabxanamız, yəni F.Köçərli adına Respublika Uşaq Kitabxanası və "Səssiz Ünsiyyət-Jest Dilinin İnkişafına Dəstək İctimai Birliyi"nin birgə təşkilatçılığı ilə Bakı Kitab Mərkəzində tədbir keçirilir. Uşaq guşəsində keçirilən görüşün qonağı isə Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili, Ombudsman – Səbinə Əliyevadır. "3 Dekabr – Beynəlxalq Əlillər Günü" münasibətilə keçirilən tədbirdə sağlamlıq imkanları məhdud uşaqlar üçün 2 nömrəli xüsusi internat məktəbi, 12 nömrəli tam orta məktəbin şagirdləri və digər oxucular iştirak edir. Dostlar, onlar uşaq yazarlarının öz dili ilə nağıllar dinlədilər. Belə ki, Səbinə Əliyeva "Oxu saatı"nda iştirak edən uşaqlara Aybəniz İsmayılovanın "Xarıbülbülün nağılı" və Zahirə Cabirin "Əvvəl zaman içində" kitablarından hekayələr oxudu. Doğrusu, kitabxananın əməkdaşları və sərgidə yer alan sevimli kitabları da mərkəzdə görmək məni çox sevindirdi.

Onu da qeyd edim ki, kitablardakı mətnləri sağlamlıq imkanları məhdud uşaqlar üçün jest dilinə "Səssiz Ünsiyyət-Jest Dilinin İnkişafına Dəstək" İB-nin jest dili sədri və təlimçisi Şamil Sabirzadə və Könül Quliyeva tərcümə edib. "Oxu saatı" Ombudsmanın uşaqlarla birlikdə "Səssizlik fərq deyil, eynilikdir!" şüarını təqdim etməsi ilə yekunlaşdı.

Dostlar, gəlin bu şüarı bir gün deyil, hər gün xatırlayaq.









# 14 Fevral

## Beynəlxalq Kitab Bağışlama Günü

*Aqillər deyib ki, bir uşağa kitab vermək qaranlığa işıq tutmaq deməkdir. Çox qürurluyuq ki, F.Köçərli adına Respublika Uşaq Kitabxanası bu devizi öndə tutaraq yüzlərlə məktəblinin gələcəyini aydınlandırır. Məhz bu məqsədlə orta məktəbin şagirdləri kitabxanamızı ziyarət ediblər. Uşaqların iştirakı ilə "14 Fevral – Beynəlxalq Kitab Bağışlama Günü"nə həsr olunmuş tədbir, həmçinin uşaq yazarları Zahirə Cabir və Nailə Həsənzadə ilə görüş keçirildi.*

Tədbir zamanı müxtəlif mövzularda maraqlı oyunlar və interaktiv sual-cavab sessiyası təşkil olunub, uşaqlar üçün müxtəlif kitablarla bağlı cizgi filmləri nümayiş olundu. Həmçinin Nailə Həsənzadənin tərtib etidiyi "Mustafanın lupası" adlı autizm spektr pozuntulu uşaqlar üçün adaptiv mütaliə vəsaiti haqqında məlumat verildi. Qeyd olundu ki, vəsait inklüziv təhsilə cəlb olunan şagirdlər üçün bir növ dərslik kimi tərtib edilib. Onların təşviş keçirməməsi üçün vəsaitdə sadə cümlələrdən istifadə edilib. Vəsait qavramaya mane olan müxtəlif ləngimə, autizm spektr pozuntusu olan, öyrənməkdə çətinlik çəkən uşaqlar üçün nəzərdə tutulub.

Həmçinin kitabxana əməkdaşlarının təqdimatında "Cırtdan" və "Alma" adlı nağıl-tamaşalar təqdim edildi. Uşaqlar bu fəaliyyətlər vasitəsilə kitablarla daha yaxından tanış olmaq, öz yaradıcılıqlarını ifadə etmək, təxəyyüllərini genişləndirmək və yeni biliklər əldə etmək imkanı qazandı.

Sonda kitabxana tərəfindən hər bir iştirakçıya maraqlı və faydalı kitablar hədiyyə edildi. Bu da danılmaz faktdır ki, kitablar uşaqların empati və anlayış qabiliyyətlərini inkişaf etdirir. Fiziki məhdudiyyətli uşaqların və sağlam uşaqların bir arada oxuması, sosial inklüzivlik və həmrəylik üçün gözəl bir addımdır.

***Kitabla qalın, kitab sizin ən yaxşı müdafiənizdir.***







*Mənim kitab rəfimə*
*Gəlin bir az yaxın siz.*
*Bir-birinə söykənən*
*Qonşulara baxın siz.*
*Sözlə dolu olsa da,*
*Hamısının sinəsi,*
*Sakitcə əyləşiblər,*
*Çıxmır birinin səsi.*
*Durub qaça bilmirlər,*
*Düşüb gəzə bilmirlər.*
*Yazıqlar bir-biriylə*
*Kəlmə kəsə bilmirlər.*
*Elə ki götürürsən*
*Sən onları əlinə,*
*Dil çatdırmaq olmayır*
*Heç birinin dilinə.*



# Rafiq Yusifoğlu 75

***Mən bütün ömrümü, həyatımı şeirə, sənətə, ədəbiyyata, onun tədqiqinə və təbliğinə həsr etmişəm. Hərdən mənə elə gəlir ki, ədəbiyyat mənim Leylimdi, mən isə onun Məcnunu.***

***Rafiq Yusifoğlu***




*Tanıdınızmı?.. Bəli, Rafiq Yusifoğlu şeiri. Dostlar, ötən günlərdə şairin 75 yaşı tamam oldu.*

*Rafiq Yusifoğlu, Sizi 75 illik yubileyiniz münasibətilə saysız oxucularınız və Respublika Uşaq Kitabxanası adından səmimi qəlbdən təbrik edirik!*

*Həyat və yaradıcılığınızdakı elmi fəaliyyətiniz, yüksək intellektualınız, həmçinin təhsil və tədqiqat sahəsindəki geniş bilikləriniz, dərin yanaşmanız, həmkarlarınız və tələbələriniz üçün daim örnək olmuşdur. Sizin apardığınız fundamental tədqiqatlar, əldə etdiyiniz elmi nəticələr yalnız nəzəriyyə deyil, praktiki tətbiqlərdə də öz müsbət təsirini göstərmişdir. Bütün bu nailiyyətlərinizə görə Sizi bir daha təbrik edir, gələcək fəaliyyətinizdə yeni uğurlar arzulayırıq.*

*– Rafiq müəllim, çağdaş uşaq ədəbiyyatının görkəmli simasısınız. Bu yurdun övladları Sizin "Üçrəngli bayraq" şeirinizi oxuya-oxuya bayrağımızı, vətən mövzusunda yazılan şeirlərinizi oxuya-oxuya bir daha vətəni sevdilər. Siz qəlbi VƏTƏN olan şairsiniz və bütün şeirlərinizdə ürəyinizdən pay ayırmısınız oxucuya. Vətəni sevdirməyin yolu vətəni sevməkdir. Nə qədər sevirsiniz vətəni?*

– Xoş sözlər üçün təşəkkür edirəm. Görüşlərin birində mənə üstündə Azərbaycanın xəritəsi, xarıbülbül və dəmir yumruq şəkli olan bir suvenir bağışlamışdılar. Üstündə bu sözlər yazılmışdı. "Vətən qoxulu şairə"... Digər bir tədbirdə qazilərdən biri mənə dedi ki, Rafiq müəllim, təkcə uşaq vaxtında deyil, elə indinin özündə də Sizin "Üçrəngli bayraq" şeirinizi dinləyəndə kövrəlirəm, qürur duyuram. Aprel döyüşlərində şəhid olan bir zabitimizin – Nəcməddin Savalanovun dəfnində onun 5-6 yaşlı qızının mənim "Üçrəngli bayraq" şeirimi əzbər söyləməsi hamı kimi məni də çox kövrəltmişdi. Bundan sonra yaranan şeirlərimin birində belə bir fikir var idi ki, şəhid övladları öz atalarını bayrağa bükülü şəkildə gördüklərindən, onlar bayrağı elə ata sayırlar özlərinə... Müharibədə iştirak edən bir tələbəmin, indi SDU-da müəllim işləyən Elşad Əliyevin döyüşdən əvvəl zəng edib səsimi eşitmək istəməsi də məni çox duyğulandırmışdı...

Vətən mövzusunda o qədər şeirlərim var ki... Onların əsasında Az.Tv "Bütün Azərbaycan əsgər olmalı" adlı bir televiziya tamaşası da hazırlamışdı. Həmin tamaşa indi də ara-sıra verilir televiziyada. "Zəfər dastanı" kitabımdakı şeirlərin əksəriyyəti də məhz bu mövzudadır. Bu mövzuda yazılan bir qism şeirlərimin dərsliklərə düşməsini də təsadüfi saymıram. Siz məndən vətəni necə sevməyimi soruşursunuz. Vətəni necə sevdiyimi adi sözlə necə deyim axı?

*Mənə dayaq, mənə həyan olanım,*
*Pərvanə tək qoy başına dolanım!*
*İşıq olub gözlərimə dolanım,*
*Çiçək olub ürəyimdə bitənim! –*
*Vətənim!*
*Gülüm solsa, yağış olub yağanım,*

*Kürə dönüb damarımda axanım,*
*Hara getsəm, yollarıma baxanım,*
*Dara düşsəm, köməyimə yetənim,*
*Vətənim!*

*Dağlarına baxıb gəlir həvəsim,*
*Xəzərindən əsən külək – nəfəsim.*
*Bu dünyada söylə varmı əvəzin? –*
*Qurban sənə ruhum, canım, bədənim,*
*Vətənim!*

*– Fizika-riyaziyyat elmləri doktoru, professor Misir Mərdanov deyir ki, "Göyərçin" "Əlifba"dan sonra uşaqların oxu vərdişlərini inkişaf etdirmək üçün ən lazımlı jurnaldır. "Göyərçin" neçə-neçə göyərçin əllərin güclə tutub oxuyaraq böyüdüyü bir sirli dünyadır. Gəlin göyərçin qanadlarından tutub Sizinlə o dünyanın pəncərəsinə boylanaq. Rafiq müəllim, nə görürsünüz?*

– Çox şey görürəm. Görkəmli yazıçıların, şairlərin – Abdulla Şaiqin, Əhməd Cəmilin, Məmməd Rahimin məhz bizim jurnalımız haqqında yazdıqları şeirlər qulağımda səslənir, "Göyərçin" qartallar yetişdirir" deyən görkəmli təmsil ustası Hikmət Ziyanı, məndən əvvəl "Göyərçin"in baş redaktorları işləyən ziyalıları xatırlayıram. O dövrün elə bir görkəm-

li şairi, yazıçısı, rəssamı yox idi ki, bizim jurnalımızla əməkdaşlıq eləməsin. "Göyərçin" zəngin bir uşaq ədəbiyyatı xəzinəsidir. Həm öz yazıçılarımızın, həm dünya uşaq yazıçılarının əsərləri yaşayır bizim jurnalımızın səhifələrində. Görkəmli yazıçıların, rəssamların əsərləri, bu xəzinənin dəyərini qat-qat artırır. "Göyərçin"in kitabxanası" seriyasından o qədər nağıl kitabları çap eləmişik ki, balalarımız üçün... "Göyərçin"in pəncərələri həm keçmişin, həm də gələcəyin üzünə açıqdır...

*– Bu günün minlərlə "Göyərçin" oxucuları var. Elə o qədər də "Göy Qurşağı"jurnalını sevənlər var. Nəvələrlə baş-başa verən körpələrə baba töhfələri nələr ola bilərdi?*

– Sualınız istər-istəməz millət vəkili Aqil Abbasın bir sözünü yadıma saldı. O bir dəfə "Azərbaycan" nəşriyyatı dəhlizində jurnalistlərin əhatəsində dedi ki, Rafiq Yusifoğlu bütün Azərbaycan uşaqlarının babasıdır. Doğrusu, söz mənim çox xoşuma gəldi...

Görünür, zaman öz sözünü deyir. "Göyərçin"in ilk oxucusu, müəllifi, şöbə müdiri, məsul katibi və baş redaktoru olmaq var imiş mənim alın yazımda. 1958-ci ildən fasiləsiz şəkildə nəşr olunan "Göyərçin" neçə-neçə nəslin dünyagörüşünün formalaşmasında, vətənpərvərlik ruhunda tərbiyəsində böyük rol oynayıb. Müstəqillik təkcə həyatımıza deyil, "Göyərçin"in səhifələrinə də yenilik gətirib... Qalib Azərbaycan dövlətinin qayğısı sayəsində "Göyərçin" öz uçuşlarını indi də davam etdirir.




*Ömrün boyu ucalmısan,*
*Ləyaqətlə yaşamısan.*
*Qanadında sən ellərə*
*Sevinc, fərəh daşımısan.*

*Hey qanad çal, üstümüzə*
*Şeir, hikmət, nağıl yağsın.*
*Gəlişinlə ömrümüzə,*
*Günümüzə günəş doğsun.*

*Körpələrin ürəyinə*
*Cığır salan "Göyərçin"im.*
*Azərbaycan göylərində*
*Qanad çalan "Göyərçin"im.*








# KÖÇƏRİ QUŞLAR HAVA LİMANINDA

Sentyabr ayına çox az qalmışdı. Köçəri quşlar, yavaş-yavaş öz çamadanlarını yığır, qışı keçirəcək dostları ilə sağollaşırdılar. Bu quşlar içərisində göyərçin balası Bik-Bik heç isti ölkələrə getmək istəmirdi. O, öz dostu sərçə Cippi ilə oynamağı çox sevirdi. Ayrılmaq ona çətin gəlirdi. Əvvəlcə Bik-Bik ana-atasından gizlənərək bu ölkədə qalmaq istədi. Sonra fikrini dəyişdi: "Bəlkə, dostuma mənimlə getməyi təklif edim?" deyə düşündü. Cippi isə qış fəslini çox sevirdi. Əlbəttə ki, dostu üçün də darıxacaqdı. Lakin o, anasından ayrılıb getmək də istəmirdi. Odur ki Bik-Bikin təklifinə razı olmadı. Quşlar bir biri ilə qucaqlaşıb sağollaşdı.

Uçuş günü gəlib çatmışdı. Onlar hava limanına doğru yol aldılar. Bik-Bik də anasının yanında gedirdi. Fikri dostunun yanında qalmışdı. Atası həyəcanla onlardan soruşdu:

– Əşyalarınızı tam yığdınız? Qalan heç nə olmadı ki?

– Yox ata! Heç nəyim qalmadı, təkcə Cippidən başqa... deyərək dimdikaltı pıçıldadı.

Budur! Quşlar artıq hava limanındadırlar. Göy göyərçinlər bilet almaq üçün kassada əyləşən Sağsağana yaxınlaşdılar. Onların yolçuluğu Afrikaya idi. Sağsağan onların biletlərini verib yola saldı. Sonra onlar yoxlanışdan keçdilər. Burada təhlükəsizliyə qarğalar nəzarət edirdi. Buradan da keçdiklərinə görə artıq təyyarəyə minə bilərlər. Təyyarədə onları stüardessa xanım çöl göyərçini qarşıladı. Bütün quşlara yerlərini göstərdi. Hərə öz yerində əyləşdi. Bik-Bik bu olanların hamısını maraqla izləyirdi. O, "köçəri olmağın da yaxşı tərəfləri var. Görəsən, Afrika necə yerdir?" deyə düşünürdü. O həm də sevinirdi ki, qayıdanda dostu ilə paylaşacaq. Bik-Bik yol boyu belə düşüncələrə dalaraq özünü xoşbəxt hiss edirdi.

Nəhayət, quşlar Afrikaya çatdılar. Cənubi Afrika meşələrindəki hava şəraiti tam da onların istədiyi kimi idi. Bik-Bik bu meşələrin faydalı yemlərindən yeyir, böyüyürdü. Beləliklə o, Afrikanın Safari meşəsində çoxlu yeni dostlar qazandı.

İstedad zirvəsi



*Yüksəl Mustafayeva*
*S.S.Axundov adına*
*172 nömrəli tam orta*
*məktəbin 4B sinif şagirdi*






## Zəngin xəzinə

**Humayun Sevinc**

# BÖYÜK XEYRİYYƏÇİ

Bu məktəb xeyli uşağın təhsil almasına kömək edəcək. Otaqları da işıqlı və rahatdır. Görəsən, qonşu kənddən bura gəlmək çətin olmayacaq ki? Gələn il orada da məktəb tikdirəcəyəm. Nə qədər çox uşaq yazıb-oxuya, savad ala bilsə, millətimin gələcəyi işıqlı olar", – deyə Xurşidbanu yeni tikdirdiyi məktəbin son hazırlıqlarını nəzərdən keçirdi.

Xurşidbanu Natəvan xalqını savadlı və xoşbəxt görmək istəyirdi. O, kəndlərdə məktəblər tikdirir, istedadlı uşaqları himayəsinə götürüb onlara təhsil verirdi.

Xurşidbanu atası Mehdiqulu xana məxsus kəndləri və böyük təsərrüfatı idarə edir, Şuşanın abadlığı üçün böyük işlər görürdü. Şuşa getdikcə gözəlləşirdi. Xan qızı yollar, körpülər tikdirdi. O, Şuşaya su kəməri çəkdirib camaatı içməli su ilə təmin etdi. Şəhərdə bulaq, buzxana, hamam tikdirdi.

Xurşidbanu Natəvan səfalı bir yerdə gözəl bağ saldırmışdı. Salxım söyüdlərin çinarların kölgə saldığı, gül-çiçəyə qərq olmuş bağ şuşalıların ən sevimli istirahət guşəsinə çevrilmişdi.

Xeyirxahlığına və nəcibliyinə görə xalq Natəvanı sevirdi. O, kasıblara əl tutur, ehtiyacı olanlara kömək edirdi. Bayram günlərində Xurşidbanu kimsəsiz uşaqları sevindirib diqqət va nəvazişini heç kimdən əsirgəməzdi.

Natəvanın xeyirxah əməlləri Qarabağın sərhədlərini aşırdı. O öz vəsaiti ilə Bakıdan Şıx kəndinə yol çəkdirdi, vətəndən uzaqda oxuyan tələbələrin təhsil haqqını ödədi, Şamaxıda açılan qız məktəbinə yardım etdi.

Vətəni və xalqı üçün çalışmaq Xan qızının ən böyük amalı idi.



# XURŞİDBANU NATƏVAN



Şuşada gözəl bir yay səhəri idi. Günəş dağların arxasından boylanaraq qızılı şəfəqlarini ətrafa yayır, ılıq nəfəsi ilə təbiəti oyatmağa tələsirdi. Qarabağ xanı Mehdiqulu xan səhəri xoş xəbərlə açdı – xanın qızı dünyaya gəlmişdi.

Günəşin xoş müjdəsi ilə doğulan körpəyə Xurşidbanu adını verdilər.

Xurşidbanu ailənin yeganə övladı olduğundan onu sarayda "Tək inci" deyə çağırırdılar. El arasında isə o, "Xan qızı" kimi tanınırdı.

Sarayın ən yaxşı müəllimləri Xurşidbanunun təlim-tərbiyəsi ilə məşğul olurdular. O, çox istedadlı və bacarıqlı idi, iti hafizəsi, gözəl nitqi vardı. Xan qızı çoxlu mütaliə edir, musiqi və incəsənətə böyük maraq göstərirdi.

Xurşidbanu şeir yazmağı sevirdi. Şuşanın əsrarəngiz təbiəti, ətirli çiçəkləri ona ilham verirdi. Yamacların yaşıl saçlarını bəzəyən tər bənövşələr, qayalardan süzülən büllur şəlalələr, sarı bülbüllərin nəğməsi Xurşidbanunun incə qəlbində qeyri-adi hisslər oyadırdı.

O, şeirlərini "Natəvan" təxəllüsü ilə yazırdı. Xurşidbanu Natəvanın şeirləri dildən-dilə gəzir, xalq tərəfindən sevilirdi.



# Yeni kitablar bizim rafimizda



***Y**axşı, nə vaxt çatacağıq? – Tural hər beş dəqiqədən bir anasından soruşur. Anası bu uzaq yolu gedərkən oğlunu necə əyləndirməsi haqqında düşünsə də, ağlına heç nə gəlmir, qarşıda isə hələ 200 kilometr var. Uşaq darıxmağa  başlayır. Bu tanış vəziyyətdir, elə deyilmi?*

Xoşbəxt bir ailə səyahəti üçün sadə məqamlar var: adi bir avtomobil, avtobus və ya qatar səfərini maraqlı oyuna çevirin. Məsələn, qarşılaşdığınız bütün yaşıl avtomobilləri saya, bir-birinizə sözlər düzəldə və çəkə bilərsiniz. Və ya özünüzlə bir kitab götürün, amma sadə deyil, düşündürücü: tapmacalar, labirintlər və digər tapşırıqları olanı götürün ki, uşaq uzun müddət onunla maraqlansın.

Beləliklə,  uşağınız nəqliyyatda, hava limanında və ya vağzalda darıxmayacaq.

## Xoş səyahətlər!






*Qələmə aldığım bütün hekayələr həyatda gördüyüm, tanıdığım insanlarla bağlıdır. Gənclik, sevgi, xəyanət, ailə, məişət, cəmiyyət – bir sözlə, həyat hekayələridir. Kimlərsə burada özünü, mənə etibar etdiyi hekayəsini görə bilər, qoy məni bağışlasınlar... Sadəcə, həyat dolu, sevgi dolu bir kitab yazmaq istədim...*

*Lafonten nağılları dünyanın bir çox böyük sənətkarlarının diqqətini cəlb etmiş, onlara ilham qaynağı olmuşdur. Çünki onun nağıl və təmsillərin dili ilə söylədiyi hər bir söz yalnız biz insanlara ünvanlanmışdı... Kitabımızda yer alan nağıllar Lafontenin qələmindən çıxan ən seçmə nümunələrdir.*




Bu kitabda oxuculara üç povest təqdim olunur. Povestlərdə sadə insanlarla yanaşı, arzularının həyata keçməsini istəyən ruh, düşünən it kimi qeyri-adi obrazlar real həyata gətirilib.







“SİMART” Sağlam İnkişaf Platforması uşaqlar və yeniyetmələr üçün maraqlı hekayələr, animasiyalar, milli nağıllar, kitab və bələdçilər, valideynlər üçün inkişaf proqramları təklif edən layihədir. “İçərişəhərin sirli sakini” layihənin nəşr olunan ilk uşaq kitabıdır. İki müəllif tərəfindən qələmə alınan hekayələr toplusu sözün sehri ilə uşaqların mənəvi dünyalarını zənginləşdirməyi, onlara hərtərəfli yanaşma bacarığı aşılamağı hədəfləyir. Kitaba gənc müəlliflərin uşaqlara ibrətamiz, tərbiyəvi və müsbət fikirlər aşılayacaq maraqlı hekayələri daxildir.

Bu kitab görkəmli ədib Mir Cəlalın 1941-ci ildə dahi Azərbaycan şairi Nizami Gəncəvinin 800 illik yubileyi münasibətilə hazırladığı silsilə nəşrləri əsasında tərtib olunub. Anlaşıqlı, olduqca rəvan dili ilə seçilən əsərlər uşaq ədəbiyyatı nümunələri kimi işlənilib, dili sadələşdirilsə də orijinal əsərlərin məna yükü böyük ustalıqla saxlanılıb.




Bu hekayədə balaca oğlan mavi pişik çəkmək istəyir. Ailədə hər kəs Cumbulunu çox istədiyinə görə ona doğru yolu göstərməyə çalışır. Amma Cumbulu pişiyi mavi rəngdə görür və elə çəkmək istəyir. Bu məsələdə onu kim dəstəkləyəcək? Həyata bəzən uşaqların gözü ilə baxmaq lazımdır. O zaman dünya daha rəngarəng və maraqlı olur!



Yenot Beyli riyaziyyat fənnini və superqəhrəman Qüdrətli Yenotu çox sevir. Məktəbdə isə Kim adlı it onu itələyir və vurur. Kimin bulinq əməlinin qarşısını almaq üçün Beyli hansı etibarlı üsulları öyrənir? Gəlin bunları birlikdə izləyək.




## Sözlü bulinq zamanı nə etmək lazımdır?

***Kitabı oxuyarkən çalışın ki, uşaq fiziki bulinqə məruz qalması, özünün kiməsə qarşı bulinq əməlinə yol verməsi və ya fiziki bulinqə şahid olub-olmadığı haqda danışsın. Əgər sadalanan hallar baş veribsə, bu məlumatı sizinlə bölüşməsi üçün onu cəsarətləndirin. Mətn və şəkillərdən söhbət və problemi həll etmək üçün istinad nöqtəsi kimi yararlanın. Məsələn, uşaq Beylinin düşdüyü vəziyyət və ona verilən məsləhət haqda nə düşünür? Uşaq bulinq törədənlərin qarşısını almaq üçün hansı üsullardan istifadə etməyi fikirləşir?***

## Gizli bulinq zamanı nə etmək lazımdır?




*Bulinqə məruz qalan uşaq sarsıntı və ya utanc hissi keçirə bilər. Bulinq uşağın özünəgüvənini, təhsil və təlim göstəricilərini aşağı sala bilər. Həm uşaqlar, həm də böyüklər bulinqi dərhal müəyyən edib cəld və ədalətli şəkildə qarşısını almağı öyrənməlidirlər. Cessi və Semi məktəbdə hamı tanıyır. Onlar avtobus dayanacağında pişik Kellinin uzun yumşaq tükünə lağ edirlər. Cess və Semin bulinq əməlinin qarşısını almaq üçün Kelli hansı üsulları öyrənir? Gəlin bunları birlikdə izləyək.*




## Emosional bulinq zamanı nə etmək lazımdır?

*Dovşan Keysi futbol oynamaqdan və komandasında qapıçı olmaqdan zövq alır. Amma Keysi oyun zamanı nəsə səhv edəndə sincab Deyna onu təhqir edir, pis adlarla çağırır. Deynanın bulinq əməlinin qarşısını almaq üçün Keysi hansı etibarlı üsulları öyrənir? Gəlin bunları birlikdə izləyək.*




***Ceymi, Teri və Sidni hər yay düşərgəyə gedirlər. Bu il Teylor da onlarla bir otaqda qaldı. Həmin vaxtdan Teylorun qəddar, kobud zarafatları səbəbindən Ceymi özünü tənha və alçaldılmış hiss edir. Teylorun bulinq əməlinin qarşısını almaq üçün Ceymi hansı etibarlı üsulları öyrənir? Gəlin bunları birlikdə izləyək.***



***Gizli bulinqi müəyyənləşdirmək heç də asan deyil. Gizli bulinq, adətən, yoldaşlar, dostlar arasında münasibətlər çərçivəsində və güc, nüfuz əldə etmək uğrunda baş verir. Həmyaşıdını saymamaq, kimisə məqsədli şəkildə qrupdan çıxartmaq, təhqiredici zarafatlar etmək, cəmiyyət işində pərt etmək gizli bulinqin nümunələridir. Bu kitabı oxuyarkən çalışın ki, uşaq öz gizli bulinq təcrübəsindən danışsın.***

## Cismani bulinq zamanı nə etmək lazımdır?






Kaija Pannula Kouvola şəhərində yaşayır və arxivdə çalışır. Onun "Fox Stories" (Tülkü Nağılları) adlı kitabı 2019-cu ildə uşaq və gənc böyüklər ədəbiyyatı üzrə Finlandiya Junior mükafatına namizəd göstərilib. Müasir Finlandiya uşaq ədəbiyyatının gözəl nümunələrindən olan bu əsər tülkünün başına gələn maraqlı hadisələrdən bəhs edir. Kitab dostluq, dəyər vermək və qarşı tərəfi anlamaq haqqında üç nağıldan ibarətdir. Qrafik dizaynda Lehtola öz fonundan istifadə edərək möhtəşəm illüstrasiyalar yaradıb. Bu illüstrasiyalar tülkünün qızılgüllərinə qulluq etməsini, kölgəsi ilə xizək sürməsini və şəkillər çəkməsini əks etdirir.

# "Tülkü rəsm çəkir"

Tülkü rəsm çəkmək istəyirdi. O, dükandan rəngsaz fırçaları, rəngbərəng boyalar, iki ədəd iri molbert, bir neçə kətan çərçivə və bir qədər də kağız aldı. Bəlkə də, bir balaca çox əşya almışdı, amma istəyirdi ki, bütün ləvazimatları olsun.

Yaxşı, indi nə çəksin? Rəsm üçün mövzu seçmək ona çox çətin gəlirdi.

Xeyli düşünüb-daşındı. Axırda qərar verdi ki, təbiət mənzərələri çəkməyə başlasın.

Çox keçmədi ki, o, pəncərədən gördüyü bütün mənzərələri çəkib qurtardı.

Qonşuluqda çoxlu bala Porsuq yaşayırdı. Onlar da molbertin yanında heç vaxt düzgün dayanmırdılar.

Meyvələr hərəkət etmirdi.

Amma Tülkü onların şəkillərini çəkəndə acırdı. Buna görə də həmişə rəsmi çəkib qurtarmamış həmin meyvələri yeyirdi. Bu o demək idi ki, Tülkü heç nə çəkə bilmirdi, çünki meyvələr axıra kimi salamat qalmırdı.

Bütün yatmış heyvanlar, qoca, yaxud cavan olmasına baxmayaraq, onun üçün yaxşı model idi. Çünki onlar, heç olmasa, yerlərindən tərpənmirdilər.

Analar və atalar övladlarının model olmasında həvəsli idilər. Çünki onlar bu anları rəsmlərlə əbədiləşdirmək istəyirdilər...

Bir gün Tülkü çöldə mənzərə çəkərkən bir dəstə Dovşan onun qabağına atıldı.

– Kənara çəkilin! Mane olmayın!

Mən rəsmimi bitirməliyəm, – deyə Tülkü mızıldandı.

Bu vaxt o, tarlada başqa bir Tülkü gördü. Təəccübləndiyindən fırçası əlindən yerə düşdü.

Təkrar dönüb baxanda artıq Tülkü orada yox idi...

Tezliklə payız gəldi. Quşarmudu ağacı çoxlu meyvə verdi.

Tülkü bir kətan çərçivə seçdi, rəngləri qarışdırıb ağaca tərəf baxdı. Bu vaxt o, birdən səksəndi:

– Oy!

– Budur, həmin Tülkü ağaca söykənib ona baxırdı...











Чинара Кочарли

# Марья и трудолюбивые пчёлы

**«Не все пчёлки как иголки»**



*Сорвав грушу с дерева, Марья потерла её о воротник, дабы убедиться, что она чистая. Марья откусила ее, но вдруг увидела внутри червяка и бросила грушу не доев.*

Откуда ни возьмись послышалось жужжание и две пчелы сели на грушу, брошенную на землю. Пчёлы не могли поделить нектар груши и ссорились между собой. Увидев это, Марья вмешалась: «Ара и Нара, перестаньте ссориться. Нектара хватит для вас обеих». Пчелы затрепетали от новых имен и воскликнули: «Нам нравятся наши новые имена, отныне все будут называть нас так». В этот миг Марью окружили ярко-желтые солнечные облака. Она не сразу поняла, что это были пчёлы. Марья с удовольствием присоединилась к своим новым друзьям и умчалась вслед за ними.  Жужжащее солнечное облако привело ее в такую же солнечную Желтую долину. В глаза Марьи сразу бросился домик, переливающийся солнечным светом. Дом был похож на шестигранный квадрат, умело сооруженный людьми. Но это было не так. Марья заметила трех пчелок, кропотливо жужжащих рядом. Они строили домик неподалеку и Марья поняла, что пчелы сами возводили свои дома.

- Улей готов, - сказала пчела, вытирая свои крошечные ладошки.

«Улей? Разве это не дом? – спросила Марья, но ответа не услышала, так как пчелы были очень заняты работой и им было не до болтовни. Пчёлы-стражи охраняли только что построенный улей от вторжения  других пчел. В это время другие пчелы, с которыми она уже успела подружиться, по капелькам передавали нектар через свои соломенные рты другой пчелке внутри улья. Дружная команда внутри собирала нектар и клала его в нужное место. Пыльцу, которую пчелки-труженики весь путь несли в своих ладошках до Желтой долины, они также передавали пчелам внутри улья.

Нектар был отменный, он просто не имел подражания! Марья прежде особо не любила мёд, но вкус этого нектара вызвал у нее восхищение и голод одновременно. На миг Марье показалось, что она сможет съесть весь улей целиком. Марья решила отведать еще меда и протянула руку, чтоб взять добавку, но в этот миг пчелы-охранники преградили ей путь и не позволили. Никакие уговоры не повлияли на них.



*Если сравнить интеллект с растением, то книги подобны пчелам, переносящим оплодотворяющую пыльцу от одного ума к другому.*
**Лоуэлл Д.**



Однако Марья была настойчива и тогда пчелы-охранники вытянули штыки вперед, чтоб оттолкнуть Марью, но Ара и Нара прыгнули вперед, чтобы помочь своей новой подруге справиться с этой ситуацией. Они отвели её внутрь улья, к Королеве всех пчел. Она сидела на своем желтом троне и смотрела на Марью. Ее взгляд не выражал злости и гнева. Приподняв свою крохотную руку, она приказала им отпустить Марью. «У пчел очень хорошая память, особенно на лица людей. Я видела эту девочку прежде, она никогда не мнет и не портит цветы, она бережливо относится к природе и кажется мне очень милой». Набравшись смелости, Марья подошла ближе к пчеле и села рядом с ней. Далее вместе с Королевой пчёл она отведала молочный нектар, который на вкус был приятным, но имел неприятный запах. Убедившись, что Королева пчёл утомилась и заснула, Марья отыскала своих друзей и разделила с ними трапезу обеда. Марье было интересно, почему трудились почти все молодые пчёлки. «Но где же тогда их отцы»? – подумала Марья.

- Друзья, а где ваш отец? – поинтересовалась она.

- Ох, - с сожалением начали Ара и Нара. – К сожалению, они нам не помогают ни охранять улей, ни убирать, и даже готовим мы сами. Они только и делают, что летают. Поскольку Марья не одобряла лень, сложно было понять, почему пчёлы-отцы не работают, ведь у неё в семье отец является примером подражания, и благодаря его усердию и уму, Марья и её семья ни в чем не нуждается, и она всегда знает, что папа рядом, и он защитит от любых бед. «Наверно, пчёлы-отцы тоже стоят на защите своих семей, поэтому у них нет времени помогать с другими делами». Раздумывая над этим, она продолжила свою прогулку в пчелином домике, и вдруг услышала громкий шум внутри улья. Пчелы ссорились, шумели и толкали друг друга. Марья заметила, как несколько пчел выгоняют из улья других пчел. Она решила помочь разобраться в том, кто виноват, а кто нет: «Друзья, давайте не будем обижать друг друга, вы же не чужие друг другу и это совсем некрасиво!» Пчёлы словно не замечали её и продолжали ссориться. Послышался голос Королевы пчёл: «Бездельникам здесь не место!» Марья начала понимать, в чем проблема. Пчёлы были изгнаны из улья из-за своей лени. Марья вспомнила, что с тех пор, как она попала в Солнечную жужжащую долину, она тоже особо ничем не занималась, кроме того, как отведывала нектар. Ей стало некомфортно в этом желто-черном жужжащем домике и она, закрыв уши руками, вышла. «Какие они шумные. Думаю, мне пора уходить, иначе, я могу попасть под горячую руку и пчёлы ужалят меня»! – окончила свою мысль Марья и, оставив позади своих новых друзей, пустилась наутёк.

Reader's Choice

# Treasure Island

Sanjay and Sarah were good friends. One day, while they were walking along the coast, Sanjay saw a bottle floating in the sea.

"Look, Sarah!  There is a bottle floating in the sea."

"Oh, yes. There is something inside it."

Sanjay walked into the water. He took the bottle out of the water.

"What's in the bottle?" asked Sarah.

"We will see. "Sanjay took a piece of paper out of  the  bottle.

"What is it," asked Sarah.

"It's a map! It's map!" shouted Sanjay.

It's a map of a buried treasure! It leads you to the buried treasure!

"Wow a treasure map!" said Sarah.

"Do you think it is a treasure map?" asked Sanjay.

Sarah replied, "I don't know. Let's follow the parrot!"

Sanjay wondered what he might find and shouted, "Maybe it's gold, silver … or jewels."

"OK. We are here and the treasure is there," said Sanjay while he was pointing to the map.

"Let's go! I will read!" said the parrot.

"Walk eighty meters north!" said the parrot.

They walked eighty meters north.

"1, 2, 3, ……., 78, 79, 80,"

"Turn right at the big coconut tree, and go straight on until you reach the crocodile pond!" said the parrot.

They turned right at the big coconut tree, and went straight on until they reached the crocodile pond.





"Walk over the bridge. Turn left, and keep on walking," said the parrot.

Sarah and Sanjay walked over the bridge. Sarah saw big crocodiles, and she screamed!

"You will see a big round rock. At the rock turn right!" instructed the parrot. They saw the big round rock.

"Walk straight ahead another fifty meters," said the parrot.

"1, 2 , 3, ...... 48, 49, 50,"

They walked about fifty meters and found themselves in front of a big, dark cave.

The parrot said, "Walk through the cave, but be careful of the bats! After that, walk straight on until you reach the sea!"

The parrot went on reading the map.

"Go along the beach for two hundred meters!"

They walked about two hundred meters, and finally they reached a big square rock.

The parrot looked at the map and realised that the treasure was behind the square rock!

"Look over there!"

They looked behind the rock. The parrot saw the treasure chest.

"Over there! Over there," the parrot shouted.

There was a big red treasure chest behind the rock. Sanjay opened it.

"It's empty!" cried Sarah.

***Inside there was an old note.***

***Dear Finder,***
***Jam sorry, I took my gold.***
***Ineeded to buy a new***
***Pirate ship.***
**BY**
**CAPTAİN REDBEARD**

"Well, at least it was a nice walk for us," said Sanjay.

"Yes, and we had a new friend! Said Sarah.



# İSTEDADLA ÇƏKİLƏN *Duyğular*



**Dəyərli dostlar, F.Köçərli Kitabxanası ailəsi günbəgün böyüyür. Bəli, onlarla oxucu kitabxanaya üz tutub abunə olur, maraqlı kitablar mütaliə edir. Ancaq elə dostlar da var ki, onlar illərdir bizimlədir. Lap uşaqlıqdan. Camal da belə oxuculardandır. O, hələ məktəbə ayaq basıb getmədən öncə, kitabxanamıza gələr, şəkilli kitablarla yaxından tanış olardı.**



## Camal Mahmudov

Bakı şəhəri Nizami rayonu 229 nömrəli tam orta məktəbin 3-cü sinif şagirdidir. Bilirsiniz o necə gözəl rəsmlər çəkir? Müşahidə qabiliyyəti olduqca yüksək olan bu balaca istedad ətraf aləmi kağız üzərinə köçürə bilir, fırçası ilə kiçik dünya qurur. Çəkdiyi rəsmlərdəki rənglərin kahkəşanı məhz onun daxili dünyasının rəngi, ahəngidir desək yanılmarıq. İstərdik ki, balaca rəssamın yaratdığı rəsmlərlə siz də tanış olasınız.



















### Balaca rəssamın kiçik qalareyası

Camalın maraq dairəsi çox genişdir. Hər zaman ünsiyyətcildir və o, yaşıdları ilə birgə faydalı vaxt keçirməyə üstünlük verir.

Camal iki yaşında ikən rəngləri tanıyırdı. Beş yaşından üzgüçülük, şahmatla məşğul olmuş, robottexnika dərnəyinə getmişdir. Amma yenə də rənglər onu sehrləmiş və hazırda 3 nömrəli UGİM-nin müəllimi gənc rəssam Nərmin Abdullayevanın rəhbərlik etdiyi “Palitra-Art” dərnəyinin üzvüdür.

Uşaqlıqdan Camal heyvanlara böyük sevgi bəsləyir, onların daima qayğısına qalır. Təsviri sənətlə məşğul olan Camal futbol, kimi idman növlərinə böyük həvəs göstərir. Ən böyük arzusu “Qarabağ Futbol Klubu” nun idmançısı olaraq ölkəmizi beynəlxalq arenada təmsil etməkdir.

Camalın işıq və sevgi dolu dünyası hər zaman günəş kimi ətrafa saçaraq onun ailəsini, sevdiklərini daima sevindirir.

Biz də “Göy Qurşağı” jurnalı oxucuları adından Camala uğurlar arzulayır, həyatın rəsmlərin qədər ahəngli, rəhgarəng olsun, deyirik!













# Figital
## GƏLƏCƏYİN OYUNLARI

Fiziki idman idman dünyasında fiziki aktivliyi və rəqəmsal texnologiyaları birləşdirən yeni bir istiqamətdir. İdeal, elə deyilmi? Bir çox valideynlər faydalı fiziki fəaliyyəti və müasir uşaqların gadgetlara olan sevgisini necə birləşdirməyi düşünürlər.

Bir-birinə uyğun gəlməyən bu iki işi birləşdirmək üçün uşaqların idrak bacarıqlarını və fiziki qabiliyyətlərini inkişaf etdirərkən oyundan həzz almasına imkan verən figital idman növləri yaradılmışdır.

İstiqamətin adı iki ingilis sözündəndir: fiziki və rəqəmsal, yəni "fiziki" və "rəqəmsal".

Figital idmanın əsas ideyası uşaqları çox sevdikləri texnologiyalardan istifadə etməklə aktiv olmağa həvəsləndirməkdir. 2024-cü ildə müxtəlif ölkələrdə bədən idmanı fəal şəkildə inkişaf etməyə başladı.

### BƏDƏN İDMANI UŞAQLARIN İNKİŞAFINA NECƏ KÖMƏK EDƏCƏK?

Fiziki məşq və rəqəmsal elementlərin birləşməsi uşaqlara məşq etməklə əylənməyə və gələcəkdə onlara kömək edəcək bacarıqları inkişaf etdirməyə kömək edir. Figital oyunlar koordinasiya, çeviklik, reaksiya sürətini inkişaf etdirir, həmçinin komanda ruhunun formalaşmasına kömək edir.

Valideynlər tez-tez bir problemlə üzləşirlər: uşaqlar açıq hava fəaliyyətlərindən qaçaraq planşet və telefonların ekranları arxasında vaxt keçirməyə üstünlük verirlər. Figital idman uşağa həm fiziki, həm də zehni idman təklif etməklə bu problemi həll edir.

### BƏDƏN İDMANI NİYƏ UŞAĞIN SAĞLAMLIĞI ÜÇÜN FAYDALIDIR?

Faydaları təkcə fiziki fəaliyyətdə deyil, həm də idrak funksiyalarının inkişafındadır. Sadə dillə desək, bu idman təfəkkürün inkişafına kömək edir. Uşaqlara daha sürətli qərarlar qəbul etməyi öyrədir, onların diqqətini və reaksiyasını öyrədir. Daimi məşq uşağınızın sağlam fiziki formasını saxlamağa və əzələ və oynaqları gücləndirməyə kömək edəcəkdir.

### BƏDƏN İDMANINA NECƏ BAŞLAMAQ LAZIMDIR?

Figital məşq etməyə başlamaq üçün heç bir xüsusi avadanlıq lazım deyil. Bir çox oyunları hətta evdə smartfon və ya planşetdən istifadə etməklə oynamaq olar. Bəzi hallarda virtual reallıq eynəkləri və ya oyun konsolları tələb olunacaq, lakin bu cür cihazlar getdikcə daha çox əldə edilir.

Düşünürəm ki, yaxın gələcəkdə bədən idmanı məktəb proqramlarının və idman tədbirlərinin tərkib hissəsinə çevriləcək. Odur ki qorxmaq və yeni istiqamətə müqavimət göstərmək əvəzinə, bunu uşağınızla etməyə çalışın və bu cür fəaliyyətin nə qədər fayda və sevinc gətirə biləcəyini görəcəksiniz.

**İdman təkcə sağlam bədənin ən vacib açarı deyil, həm də dinamik və yaradıcı intellektual zəkanın əsasını təşkil edir.**







**Maraqlıdır**

*METRODA KİTABXANA*

*Yer kürəsinin sakinləri hər gün metroda olduqca çox vaxt keçirir. Bu vaxtı dəyərləndirməyin ən yaxşı yollarından biri də oxumaqdır. Məhz belə yeraltı kitabsevərlər üçün Nyu-York metrosunun 50th Street stansiyasında mini kitabxana fəaliyyət göstərir. Kiçik kitabxana Nyu-York İctimai Kitabxanasının bir hissəsidir. Bu, qeyri-adi və maraqlı bir təşəbbüs olaraq, ictimai nəqliyyat istifadəçilərinə əlavə xidmətlər təqdim edir.*

# YERALTI DÜNYA METRO

***Salam, dostlar, bu mənəm – İNCƏHÖRÜM. Sizinlə görüşmək məni çox sevindirir. Mən bu dəfə sizə toplu daşımalardan biri – Metrolar haqqında danışmaq istəyirəm. Metro — şəhər sərnişin nəqliyyatı vasitəsi, küçədənkənar rabitədə şəhərdaxili yeraltı sərnişin daşımalarını yerinə yetirən sərnişindaşıma nəqliyyatı növüdür. Adətən, əhalisinin sayı 1 milyon nəfərdən çox olan şəhərlərdə tikilir. Metronun digər ictimai nəqliyyat vasitələrindən bir neçə əsas üstünlüyü var. Metro tıxac və ya hava şəraiti kimi təsirlərdən uzaqdır. Metrolar yüksək tutumlu nəqliyyat vasitələri olduğu üçün çoxlu sayda sərnişinə xidmət göstərə bilir. Bu xüsusiyyət şəhər mərkəzlərindəki sıx nəqliyyat axınını azaldır. Metro elektriklə işləyir, havanı çirkləndirmir, yaşayış məntəqələri üçün səs-küy yaratmır. Bu nəqliyyat növü əhalinin daha sürətli və rahat şəkildə ünvana çatdırır. Metro digər vasitələrə nisbətən daha az enerji sərf etdiyindən səmərəliliyi də yüksəkdir.***

Dostlar, dünyada qeyri-adi, ecaskar metrolar çoxdur. Onları gedib görmək mütləq deyil, rəsmlərə baxarkən belə siz bu qeyri-adi gözəlliyə heyran qalacaqsınız, həyəcan keçirəcəksiniz. Sanki o yer altında siz də varsınız. Sanki o sirli dünyanın qonağı olmusunuz kimi...

**BAKI** şəhərində metro 1967-ci il noyabrın 6-da fəaliyyətə başlayıb. O vaxt metropolitenin cəmi beş stansiyası vardı. Hazırda Bakı Metropoliteni 3 xətt üzrə 27 stansiyadan ibarətdir. Stansiyaların yeddisi yerin böyük dərinliyində yerləşir.

- İçərişəhər
- Nizami
- Elmlər Akademiyası
- Cəfər Cabbarlı
- Şah İsmayıl Xətai
- 8 Noyabr
- Sahil




Bu stansiyalar müxtəlif illərdə istifadəyə verilmişdir və şəhərin geoloji şəraitinə uyğun olaraq dərinlikdə tikilmişdir.





**LONDON** metropoliteni dünyada ən qədim metrodur. İlk metro məhz İngiltərədə inşa olunub. O, 1863-cü ildən bu yana fasiləsiz olaraq xidmət göstərir və hər gün 3 milyon insan daşıyır ki, bu da bir ildə 1 milyard sərnişin deməkdir. London metrosu 12 xətdən ibarətdir və 270 stansiyaya malikdir.



**NYU-YORK** metrosunda isə dünyada ən çox – 468 stansiya var. Onlar şəhərin 5 rayonundan 4-də – Manhetten, Bruklin, Kuins və Bronksda yerləşir. Bu yaxınlarda Nyu-Yorkda "Oculus" adlı dünyanın ən bahalı stansiyası istifadəyə verilib. O, 2001-ci il 11 sentyabr hadisəsi qurbanlarına həsr olunmuş xatirə abidəsinin yanında yerləşir. Konstruksiyanın tavanı uçmağa hazırlaşan ağ quş şəklində qurulub. Layihənin müəllifi ispaniyalı futurist-rəssam Santyaqo Kalatravadır.



Dünyada ən gözəl və qeyri-adi metrolardan biri İsveçin paytaxtı **STOKHOLM** şəhərində yerləşir. Stokholm metrosunu dünyanın ən uzun rəsm qalereyası adlandırırlar. 1950-ci ildə istifadəyə verilən metro indiyə qədər rəssamların tərtibatı ilə hazırlanır. 1970-ci illərdən tikintisi ucuz başa gəlsin deyə stansiyanın divarlarını hamarlamaqdan imtina edirlər. Bu səbəbdən metro bədbin görünməsin deyə onları rəsm və heykəllərlə bəzəyirlər. Bundan başqa, bəzi stansiyalar müasir rəssamlar üçün sərgi meydançaları kimi istifadə olunur. Bütün bunlar Stokholm metrosunu əlvan, qeyri-adi və əsl mənada unikal hala gətirib.



Ən dərin metropoliten isə **SANKT-PETERBURQ**dadır. Buradakı 65 stansiyadan 57-si torpağın çox dərin qatlarında salınıb. Bunların arasında yer alan "Admiralteyskaya" stansiyası 102 metr dərinlikdə tikilib.

**MOSKVA** metropoliteni dünyanın ən gözəl stansiyalarından birinə malikdir.

**DUBAY**da yerləşən "Xalid Bin Əl Valid" metro stansiyası düz "BurJuman Mall" ticarət mərkəzinin altında tikilib. Bunun sayəsində "Xalid Bin Əl Valid" şəhərin ən çox gediş-gəlişli stansiyalarından birinə çevrilib.



## Xocalı həqiqəti

# Palitra Art Studio

## şagirdlərinin fırçalarında



Mələk Əlizadə
311 nömrəli məktəb



Məmmədli Günay
311 nömrəli məktəb



Cəfərzadə Ləman
201 nömrəli məktəb



Məmmədzadə Zəhra
311 nömrəli məktəb



Qurbanlı Fidan
311 nömrəli məktəb



Muradova Nazlı
201 nömrəli məktəb





Tahirə Cəfərli
311 nömrəli məktəb



Orucsoy Rəhilə
201 nömrəli məktəb



Məmmədova Aysun
311 nömrəli məktəb



Nihad Məmmədli
201 nömrəli məktəb



Ağayeva Nuray
201 nömrəli məktəb



Cəlil Zaur
201 nömrəli məktəb

# КРОССВОРД - СЛОВЕСНЫЙ ЛАБИРИНТ



## ЧТО МЫ ВИДИМ И ЧЕГО НЕ ВИДИМ В МЕТРО

***ПО ГОРИЗОНТАЛИ:***

*1. Площадка для посадки пассажиров в вагоны.*
*3. То, что регулирует диспетчер.*
*6. Просторное проходное помещение в метро, которое видят пассажиры.*
*7. Тот, кто следит за движением поездов.*
*12. То, что засасывают, согревают и охлаждают вентиляторы.*
*13. Стальные балки на шпалах метро.*
*14. Машина, которая моет поезда метро.*
*16. Свежий прохладный поток воздуха в метро.*
*18. Приспособления, которыми моют поезда метро.*
*19. Пункт остановки поездов метро, который мы видим.*

***ПО ВЕРТИКАЛИ:***

*2. То, в чём утонули бы залы станций метро без работы невидимых нам машин и механизмов.*
*4. Подземная дорога, по которой ездят поезда метро.*
*5. Машина, которая моет и подметает полы.*
*8. Состав вагонов метро.*
*9. Место, где сидит диспетчер.*
*10. Поверхность, на которой отражаются схемы движения поездов.*
*11. График движения поездов.*
*15. То, что переключает диспетчер.*
*16. Беспрерывно гудящее устройство.*
*17. Часть поезда, которая после «душа» сверкает чистотой.*








**Əziz oxucu!**
**Bu kitabı nə qədər dəyərli bir insan olduğunu, həyatının nə qədər vacib olduğunu sənə bir daha xatırlatmaq üçün yazmışam.**
**Viktoriya İver**

...Kelta kitabı açıb növbəti heyrətamiz hekayəni oxumağa başladı. Elə təzəcə dərindən nəfəs almışdı ki, birdən arxa həyətdən güclü bir tappıltı səsi gəldi.

Kelta həyəcanlansa da, marağını boğa bilmədi. Orada nə baş verdiyini öyrənmək üçün gödəkcəsini çiyninə atıb ayağında çəkələk çölə qaçdı... TAPP!

...Araya bir qədər sükut çökdü, sonra Ay köks ötürüb dedi:

– Mən göydə heç kimə lazım olmayan mənasız işlərlə məşğul olmaqdan yorulmuşam.

– Bunu haradan uydurdun?! – Kelta cavab verdi. – Sənin işin heç də mənasız deyil!



– Mənasızdır, mənasız... Axmaq işdir, axmaq... Hamı artıq yerinə uzanıb yatmağa başlayanda mən yuvarlanıb göyün üzünə çıxıram. Bəziləri hətta şikayət edirlər ki, mən onların pəncərələrinə işıq salıb yuxularını qaçırıram, – deyə Ay uzandığı yerdən qaranlıq səmaya baxdı.

– Axı sənin işığına əhəmiyyət verənlər də, onu sevənlər də var, – Kelta inamla dedi.

– Eh, mən buna şübhə edirəm...



– Ay yenə köks ötürdü. – Hamı Günəşin çıxmasına görə sevinir... Onu sevir, həmişə yolunu gözləyirlər. Mənim isə işim-gücüm ancaq öz qəribəlikləri və gülüşləri ilə zəhləmi tökən ulduzlara dayəlik etməkdir...

Keltanın Aya yazığı gəldi. Amma ona necə kömək edəcəyini bilmirdi...

Birdən qızın ağlına bir fikir gəldi:

– Bura bax, gəlsənə Boz meşədən keçərək Böyük dağa gəzintiyə çıxaq! Görək kimsə sənin yoxa çıxdığını və işığının kəsildiyini hiss edibmi... – Kelta qışqıraraq Balaca evə tərəf qaçdı...

...Uzunquyruqlar əsrarəngiz Ay işığında Keltanın füsunkar hekayəsini dinləyə-dinləyə şirin yuxuya getdilər...

***Bu gözəl kitabı gəlib kitabxanamızda oxuya bilərsiniz.***

# DÜŞÜN VƏ TAP



Bütün elmlərin açarı sual işarəsidir.
*Onore de Balzak*

























Hansıları ən çətin və asan hesab etdiniz? Onları nə qədər tez həll edə bildiniz?